# Müqəddəs "Qurani-Kərim"in qədim əlyazmaları

**Müxtəlif dünya ölkələrinin dini idarə və təşkilatlarının sənədlərində göstərilir ki, bizim eranın 800-cü illərinə - Məmməd Peyğəmbərin (s.ə.s) ölümündən (632-ci ildən) 168 il qonraya qədər əllə yazılmış "Qurani-Kərim"in 10 qədim əlyazmaları, onun 60-dan çox fraqmentləri, o cümlədən 2000 vərəqədən çox (4000 səhifə) kəsik mətn əlyazmaları tapılmış, radiokarbonlu birləşmələrin analizi yolu ilə təsdiq edilmiş və dünya ölkələrinin çoxsaylı muzey və kitabxana fondlarında saxlanılır.**



İslam dünyasının dini, siyasi lideri və qurucusu Məhəmməd Peyğəmbərdir. İslam təliminə əsasən Adəm, İbrahim, Musa, İsa və digər peyğəmbərlərin monoteist təlimlərini təbliğ etmək, insanlara çatdırmaq və təsdiqləmək üçün göndərilmiş Peyğəmbərdir. Quran islamın ən ali mətnidir - kitabıdır, baş mələk Cəbrayıl vasitəsilə Məhəmməd peyğəmbərə - insanlara çatdırılan Allahın sözləri, kəlamları, surələri və ayələridir. YUNESKO-nun 1997-ci il hesabatından: Quranın əsli (orjinalı) hansıdır və harada saxlanılır? 1997-ci ildə YUNESKO Osman Quranını "Dünya Yaddaşı" reyestrinə daxil etmiş və bu Quranı əsil orjinal Quran kimi təsdiq etmişdir. Bu Quran dünyada Quranın yeganə orjinal - əsil əlyazması kimi qəbul edilməklə Özbəkistanda - Daşkəndin Həzrəti İmam Ansambılına daxil olan Muyi Mübarək Mədrəsəsində ("Müqəddəs tük") saxlanılır. Dünyanın əsas elm, təhsil və mədəniyyət təşkilatı olan YUNESKO-nun 28 avqust 2000-ci ildə verdiyi sertifikat bu Quranın dünyada əsil Quran əlyazması olmasını təsdiq edir. Bu əlyazma Quran 644-648-ci illərdə yazılmışdır. 353 böyük ölçülü perqament səhifədən ibarətdir.

Uca Allahın yer üzünə göndərdiyi surələr toplusunu - Quranı kitab kimi yazdırıb hazırlayan Xəlifə Osman olmuşdur.

Muyi Mübarək Mədrəsəsinin fondunda bu kitabla bərabər Məhəmməd Peyğəmbərin (s.ə.s.) saçının tükü də saxlanılır. Ona görə də bu mədrəsə Muyi Mübarək ("Müqəddəs tük") Mədrəsəsi adlandırılıb.

**Dünyada Quranın 10 qədim əlyazmaları bunlardır:**

1) Birminqem Universiteti əlyazması:

Ayri-ayri surələr VII əsrdə quzu və keçi dəriləri üzərində yazılıb. Döstərilir ki, bu hissələr Məhəmməd peyğəmbərin dövründə yazılıb.

2) Yəmənin Sana əlyazması:

1972-ci ildə Böyük Sana Məscidinin təmiri zamanı tapılıb. Perqament üzərində yazılıb, 7-8-ci əsrlərə aid edilir.

3) Topqapı əlyazması:

8-ci əsrə aid edilir. Əlyazmanın ölçüləri: 41X45sm. Quranın 99 faiz mətni əhatə olunub, 2 səhifəsi - 23-cü surəsi yoxdur. Yurisəlimdəki Daş Günbəz və Dəməşqdəki Əməvilər məscidindəki nüsxələrə oxşayır.

4) Səmərqənd Quranı:

Osman quranına Daşkənd və ya Səmərqənd əlyazması da deyilir. 8-9-cu əsrlərə aid edilir. Müasir İraq ərazisində yazılıb. Radiokarbionlu birləşmələrin analizi ilə, 95,4 faiz dəqiqliklə 765-855-ci illər arasında yazılması təsdiq edilib.

5) Sankt-Peterburq Quranı:

VII yaxud VIII əsrlərə aid olan bu əlyazma Quranın böyük hissəsi Paris Milli Kitabxanasında (70 səhifə), qalan 46 səhifəsi isə Sankt-Peterburqdakı Rusiya Milli Kitabxanasındadır. 1 səhifəsi Vatikan kitabxanasında və bir səhifəsi Londonda professor Xəlilin kolleksiyasında olmaqla bir yerdə bütün Quranın mətninin 45 faizini əhatə edir.

6) Mavi Quran:

Tunis kufi əlyazması olan Mavi rəngli Quran IX əsrin sonu X əsrin əvvələrində yaradılmışdır. Bu Quran ən bədii tərtibatlı, islam incəsənətinin ən böyük əsəri və bütün Quran əlyazmasılarının ən qiymətlisidir. Əlyazma perqament üzərində qızıl (xrizoqrafiya) hərflərlə gümüşü fonda işlənilmişdir. Bu əlyazma 7 cilddə 600 səhifədən ibarətdir. Osmanlı imperiyası dövründə hazırlanıb. Tunis Milli Kitabxanasında saxlanılır.

7) İbn Əl-Babab əlyazması:

Bu əlyazma tamdır, Dublin Kitabxanasındadır. Bağdadın ərəb kalliqrafı Əbu Həsən Alin İbn Xəlil, İbn əl-Babab kimi tamnan şəxs tərəfindən köçürülmüşdür. Tarixi hicri 391-ci ildir.

8) Əndəlus əlyazması:

Bu Quranın - Əndəlus kufi əlyazmasının tarixi XI əsrdir.

9) Məğrib əlyazması:

Quranın perqament üzərində yazılmış bu əlyazması 13-cü əsrə aiddir. Məğrib məktubları üsulu ilə yazıldığına görə belə adlanır.

10) Sevilya Quranı:

13-cü əsrdə yazılmış bu əlyazma islam İspaniyasının qədim və nadir Qurani hesab edilir. 1226-cı ildə (hicri 624-cü ildə) Sevilyada (indiki İspaniya) hazırlanmışdır. Münxendə Bavariya dövlət kitabxanasında saxlanılır. Quranda adı çəkilən Azər İbrahim peyğəmbərin atasıdır. Belə hesab edilir ki, indikiAzərbaycan dövlətinin adı da bu kökdən əmələ gəlmişdir.

İbrahim Peyğəmbər b.e.ə. 2167-1792-ci illərdə anadan olmuşdur. Yəni 4000 il bundan əvvəl. 200 il yaşamışdır. İbrahim dinlərin ortaq əcdadıdır (Yəhudilik, Xristianlıq və İslam dinləri).

Oğlanları İsmayıl və İsaqdır. Hər ikisi peyğəmbərdirlər.

İsmayıl - Fələsdində doğulub, Məkkədə Əl-Hərəm məscidində dəfn edilib, Həcərin oğludur, 133 (137) il yaşayıb.

İsaq - Saranın oğludur, 180 il yaşayıb, Beytül-müqəddəs yaxınlığında Əl-Xəlil (Hevron) şəhərində dəfn edilib.

***Professor-doktor***
***Hacı Müzəffər Məmmədov***